# Udi mədəniyyətinə həsr olunub

Özünün multikultural ənənələri ilə seçilən Nic qəsəbəsində iyul ayının 20-də udi mədəniyyətinə həsr olunmuş tədbir keçirildi. Xaricdə yaşayan udi ziyalılarının da yaxından iştirak etdiyi bu mədəni-kütləvi tədbir artıq ikinci ildir ki, qeyd olunur.

Tədbiri giriş sözü ilə açan udi xristian icmasının rəhbəri Robert Mobili böyük iftixarla bildirdi ki, ölkəmiz müstəqillik qazandıqdan sonra udilərə öz dilini və mədəniyyətini inkişaf etdirmək istiqamətində dövlətimiz daim diqqət və qayğı göstərmişdir. Qeyd olunub ki, qəsəbədəki beş tam orta məktəbin üçündə udi dili tədris olunur. Robert Mobili Nicdə «Çotari» alban-xristian kilsəsinin də yüksək səviyyədə təmir edilərək dindarların istifadəsinə verildiyini, «udi evi» adlı çox maraqlı memarlıq üslubuna malik qədim malikanənin bərpa olunduğunu və yaxın günlərdə fəaliyyətə başlayacağını diqqətə çatdırdı.

Mərasimdə Qəbələ RİH-nin işçisi Abdusalam Hüseynov və qəsəbənin icra nümayəndəsi İbrahim Məmmədov iştirak ediblər.

Tədbirdə «Orayin» Udi Mədəniyyət Mərkəzinin rəhbəri Oleq Danakari, qəsəbə yaradıcılıq evinin direktoru Vitali Koçarxoy, qəsəbə ağsaqqallar qrupunun sədri Frans Vartanov, Volqoqradlı alim Riçard Danakari və başqaları udilərə göstərilən dövlət qayğısına görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

Qəsəbə sakini Aşot Udinoğlu udi və Azərbaycan dillərində yazdığı yeni şeirlərini oxudu. Təqaüdçü müəllim Əhməd Məmmədlinin «Nicim mənim» adlı şeiri də alqışlarla qarşılandı.

Qəsəbədə fəaliyyət göstərən "Joğul" udi folklor ansamblının ifasında səslənən udi və azərbaycan xalqlarının mahnı və rəqsləri böyük coşqu ilə qarşılandı. Xüsusilə 10 yaşlı udi Stanislav Muradarinin sazda ifa etdiyi «Ruhani» havacatı şənlik iştirakçılarında xoş ovqat yaratdı.

Bu el şənliyində qəsəbədə yaşayan bütün xalqların nümayəndələri iştirak edirdi.

**Şahid İSLAMOV,**
**qəsəbə 3 nömrəli tam orta məktəbin müəllimi.**

# Qəbələdə turizm və qadınlara dəstək layihəsi icra olunub




Coca-Cola, ASAN könüllüləri və Azərbaycan Turizm və Menecment Universiteti bölgələrdə qadınların turizm sahəsində təşəbbüslərinə dəstək olmaq üçün "Uğurlu qadın, uğurlu gələcək" layihəsinə start veriblər.

Layihənin ilk komponenti üzrə təlimlər iyulun 16-da Qəbələdə başlayıb. Azərbaycanın əsas turizm mərkəzi sayılan və turizm potensialı ilə tanınan Qəbələdə 6 gün davam edən bu təlimlər turizmin əsasları və idarəçiliyi, müştəri xidməti, gigiyena kimi bir sıra önəmli mövzulara həsr olunub.

Layihənin məqsədi bölgələrdə yaşayan qadınları turizm təlimlərinə cəlb etmək, onları turizm biznesinə həvəsləndirmək, bu sahədə dövlət siyasətinə və biznes təşəbbüslərinə dəstək olmaqdır. Tədris Türkiyənin tanınmış mütəxəssislərinin Azərbaycan Turizm və Menecment Universitetinin professor-müəllim heyəti ilə birgə hazırladıqları proqram əsasında həyata keçirilib.

**Səhrab UMUYEV,**
**"Qəbələ"**

# Tədbir keçirilib

Bu günlərdə Qəbələ Rayon Mərkəzləşdirilmiş Kitabxanalar Sistemində «Dünyanı ağ ölümdən qoruyaq!» mövzusunda tədbir keçirilib.

Tədbirdə bu bəşəri bəlanın tarixi barədə məlumat verilib.

Çıxış edənlər narkotik vasitələrdən istifadənin milli genofondumuza ağır təsir göstərildiyini bildiriblər. Qeyd olunub ki, bu zərərli vərdişdən cəmiyyətimizi qorumaq məqsədilə rayonun əmək kollektivlərində, mədəni-maarif və təhsil müəssisələrində müxtəlif maarifləndirici tədbirlərin keçirilməsi genişləndirilməlidir.

**Sevinc SABİRLİ,**
**MKS-nin işçisi.**

# Uğurlu karyeranın təməli

***Hər kəs peşə seçərkən düzgün seçim etməlidir. Uğursuz peşə seçimi gələcəkdə gənclərin həyatda öz yerlərini tuta bilməməsinə gətirib çıxarır.***

Doğru peşə seçimi üçün üç amil: peşəyə istək, peşə bacarığı, əmək bazarının tələbi vacib şərtlərdəndir. Peşə və ixtisas seçimi zamanı hər bir gənc əmin olmalıdır ki, seçdiyi məhz arzuladığı, arzuladığı elə seçdiyidir.

Gənclər peşə seçərkən öz daxili imkanlarını da ölçüb biçməlidirlər. Əldə etdikləri peşənin öhdəsindən gəlib və yaxud gələ bilməyəcəklərini götür-qoy etməlidirlər. Bəzən valideyn övladını öz istədiyi peşədə görmək istəyir. Yəni peşə seçimində övladının istək və qabiliyyətini nəzərə almır. Ona görə də gələcəkdə seçilən peşədə uşaq heç bir uğur əldə edə bilmir. Tutduğu peşənin öhdəsindən gələ bilmir. Doğru peşə seçimi edərkən ən vacib amil sayılan əmək bazarının tələbidir. Təhsillə əmək bazarındakı tələblər üst-üstə düşməlidir.

Hər kəs öz peşəsində həmişə peşəkar olmağa çalışmalıdır. Peşəsindəki yeniliklərlə tanış olmalı, ən son texnologiyaları öz peşəsində tətbiq etməyi bacarmalıdır. Bacarıqlı peşəkar işçiyə hər vaxt ehtiyac var.

**Mabid ƏZİMOV,**
**Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin müəllimi.**

# Təqdimat mərasimi olub

Mayın 16-da Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 2018-ci ilin məzunlarına diplomların təqdimatı mərasimi təşkil olunmuşdur. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Absalam Hüseynov, rayon təhsil şöbəsin müdiri Arifə Bayramova, rayon məşğulluq mərkəzinin direktoru Elxan Səlimov, işəgötürən müəssisələrdən "Aqrokompleks Qəbələ MMC"-nin nümayəndəsi Sərxan Allahverdiyev, Qəbələ Mədəniyyət Mərkəzinin əməkdaşı Xəyal Gəncimov, ictimaiyyət nümayəndələri və valideynlər iştirak ediblər.



İclasda ixtisaslı kadrlara olan tələbatın çox böyük hissəsinin ödənilməsi peşə təhsili müəssisələrinin öhdəsinə düşdüyü qeyd olunub. Mərkəzin mühəndis-pedaqoji işçilərinin bu sahədə yüksək təcrübəyə malik olduqları və gələcəkdə də müasir təlim üsulları ilə kadr hazırlığı işlərinə səylərinin artırılacağı tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Bildirilib ki, bu il mərkəzi 11 ixtisas üzrə 185 nəfər məzun bitirib.

Tədbirdə peşə təhsil mərkəzini bitirən məzunlara ixtisas diplomları təqdim olunub.

Sonda məzunlar xatirə şəkilləri çəkdirib.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**İlkin Vəlizadə (foto).**
**«Qəbələ»**

# Azərbaycana 184 ölkədən 1055,6 min turist gəlib

*Yanvar-may aylarında Azərbaycana 184 ölkədən 1055,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.*

*AZƏRTAC xəbər verir ki, may ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların həcmi 107,3 milyon manat təşkil edib. Bu göstərici ötən ilin may ayı ilə müqayisədə 16 faiz çoxdur.*

# Rayonumuzun yol tikintisinə 6,8 milyon manat ayrılıb

Prezident İlham Əliyev Qəbələ rayonunun Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən 11 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi məqsədilə 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Məktəblilərə xatirə hədiyyələri təqdim edilib

***Sərhədlərimizin mühafizə olunmasının əhəmiyyətinin daha dərindən dərk edilməsi, məktəbli gənclərin Vətən sərhədlərinə və sərhədçi peşəsinə hörmət ruhunda tərbiyə olunması məqsədi ilə Dövlət Sərhəd Xidməti yeni layihəyə–sərhəd zastavalarında gənclər üçün hərbi-vətənpərvərlik düşərgəsinin təşkili layihəsinə start verib.***

Layihə çərçivəsində "Laza" sərhəd zastavasının bazasında "Sərhədçi" yay düşərgəsi təşkil olunub.

Yay düşərgəsində məktəblilər arasında minifutbol, şahmat, dama, stolüstü tennis yarışları, müxtəlif əyləncəli musiqili tədbirlər təşkil olunub, kinematoqrafçılarımız tərəfindən vətənpərvərlik mövzularında çəkilmiş filmlər və Dövlət Sərhəd Xidmətinin fəaliyyətini əks etdirən videoçarxlar nümayiş etdirilib. Yay düşərgəsinə gələn şagirdlərin Qəbələ rayonunun görməli yerlərinə, mədəniyyət ocaqlarına ekskursiyaları təşkil olunub.

İyulun 19-da "Sərhədçi" yay hərbi vətənpərvərlik düşərgəsinin başa çatması ilə əlaqədar təntənəli mərasim keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin gənc nəslin Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunmasına, savadlı və sağlam inkişafına göstərdiyi diqqət və qayğı xüsusi qeyd edilib, Dövlət Sərhəd Xidməti tərəfindən keçirilən bu cür tədbirlərin gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rolu vurğulanıb.

Tədbirdə düşərgə dövründə müxtəlif yarışların qalibi olmuş şagirdlər mükafatlandırılıb, məktəblilərə xatirə hədiyyələri təqdim edilib.

**"Qəbələ"**